# "Vətəndaşlığın əlifbası", yaxud milli ideyanın davamı



Dekabrın 20-də Yazıçılar Birliyinin Natəvan klubunda Xalq şairi, Millət vəkili Sabir Rüstəmxanlının "Elm və təhsil" nəşriyyatında nəfis şəkildə çap edilmiş "Vətəndaşlığın əlifbası" kitabının təqdimatı oldu.

Tədbiri AYB sədrinin müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid açdı. Dedi ki, görkəmli sənətkarın təqdim olunan "Vətəndaşlığın əlifbası" kitabı onun "Ömür kitabı" əsərinin davamı kimi səslənir. Kitaba daxil edilən esse və məqalələr özünü bu ölkənin vətəndaşı hesab edən hər kəs üçün maraqlıdır...

Xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar bildirdi ki, Sabir Rüstəmxanlının çoxşaxəli yaradıcılığından və parlaq şəxsiyyətindən söz açanda hər şeydən əvvəl böyük vətəndaş epiteti yada düşür. Sözün həqiqi mənasında, Sabir Rüstəmxanlı böyük vətəndaşdır: "Mən çox xoşbəxtəm ki, Sabirlə dostluğumuz bütün dövrlərdə səmimi və davamlı olub. Sabir doğma Azərbaycanımızı həmişə bütöv görən bir insandır. Onun bütün Türk dünyasına olan səfərlərinin təəssüratları həmişə azərbaycançılıq düşüncəsinə, mücadiləsinə hesablanıb. Sabir həqiqət, azadlıq, maarifçilik, vətənçilik yolunun dönməz yolçularındandır. Bu istiqamətdə Sabirlə eyni düşüncənin, eyni yolun yolçusu olmağımdan məmnunam. Bizi vətənçilik, vətəndaşlıq düşüncəsi, mövqeyi bir araya gətirir. Atamın bir şeirində deyildiyi kimi, "mübarizə bu gün də var, yarın da", biz də onun ön sıralarında".

Xalq şairi Sabir Rüstəmxanlı tədbirdə çıxış edərək dedi: "Həyatım boyu millətimin sözünü, xalqımın ürəyindən keçənləri deyə bildiyimə görə xoşbəxtəm. Xoşbəxtəm ki, yüz minlərlə insanın sevgisini qazana bilmişəm. Diqqətinizə təqdim etdiyim bu kitab mənim öz içimdi, qəlbimdi. Doğma vətənim haqqında, Azərbaycançılıq haqqında, insanlıq haqqında, vətəndaşlıq haqqında, tarix haqqında düşüncələrimin bir araya gəldiyi hücrədir. "Vətəndaşlığın əlifbası" hər şeydən əvvəl, Yurd və Yurddaşlıq haqqında düşüncələrimdən doğulub. Etno-psixologiya, milli ruh üzərinə elmi araşdırma deyildir, öz həyat təcrübəmdən doğan sonuc və arzulardır.

Vətənimizi ikiyə bölən sərhəd mənim nəslimə, ata-ana ocağıma məxsus olan yaylaqların, doğma yurdlarımızın yaxınlığından keçir. Holavar daşından, Haça Yurddan, Xoca Döngədən aşıb Sarıbulağın, Şahnişinin üstündəki təpələrə qalxan kimi Savalanın qarlı zirvələrilə üz-üzə qalırsan və aydın havada Ərdəbilin içini görürsən. Sərhəd bir az şimaldan keçsə bizim obalar da o tayda qalardı. Buna görə özümü nə qədər Quzeyli sayıramsa, bir o qədər Güneyliyəm. Üstəlik, yaşım da, keçdiyim mürəkkəb həyat yolu da bu məktub-naməmi, esse-məqalələrimi yazmaq üçün mənə mənəvi haq verdi...

...Cəmiyyətdə, toplumda başqa yeraltı sular axır. Başqa dillərin və başqa məktəblərin havası cəmiyyət münasibətinə qarışır və həmin hava bizə münasibətdə heç də həmişə sağlam və ədalətli olmur. Bu bazara hərə öz malını daşıyır. "Açıq cəmiyyət" çox vaxt təslimçilik cəmiyyətinə çevrilir. Belə halda daha çox susub dinləməyə məcbur edildiyimiz bir missioner mühitinə düşürük. Nəticədə, cəmiyyət ailədən və məktəbdən gələnin üstünə ciddi bir şey əlavə etmir. Bütün hallarda bu münasibətlərin, tarixi olayların acı örnəklərindən nəticə çıxarmalıyıq. Xitabımız böyük Gələcəyə olmalıdır. Sonsuz inam və vüqar hissiylə o böyük Gələcəyə xitab etməliyik ki, Sənin bir yolun tarixini yenidən öyrənmək və qavramaq, coğrafiyamızın böyük sərhədlərini bərpa etməkdir.

Bir yolun Türk birliyini möhkəmləndirmək və Avroasiyada yeni bir güc mərkəzinə çevrilməkdir.

Qoynunda yer saxla! Bütövləşmiş, tam müstəqilləşmiş, demokratik, əsl xalq hakimiyyəti ilə ifadə olunan Vətənim üçün... Turanın bir parçası olan Azərbaycan üçün..."

Sonra "Vətəndaşlığın əlifbası" toplusunun redaktoru, hüquqşünas Adil Minbaşı, akademik Teymur Kərimli, şair və yazıçılardan Rəfiqə Nazimqızı, Yusif Həsənbəy, Zemfira Məhərrəmli, Fazil Güney, Yazıçılar Birliyinin katibləri Elçin Hüseynbəyli, Səlim Babullaoğlu, professor Kamran Rüstəmov, ədəbiyyatşünas Telman Cəfərov, tanınmış naşir Əlövsət Ağalarov, cənublu şair Yəqub İsuli və başqaları çıxış edərək Sabir Rüstəmxanlı yaradıcılığının və ictimai fəaliyyətinin parlaq səhifələrindən söz açdılar.

Vurğulandı ki, Xalq şairi, Millət vəkili Sabir Rüstəmxanlı Azərbaycan istiqlalının "Ömür kitabı"nı yazıb, öz ömrünü də bu istiqlala həsr edən görkəmli qələm sahibidir. Müstəqilliyimizin bərpası uğrunda mübarizənin başlanğıcı olan Meydan hərəkatının liderlərindən biri, öz əsərləri, çıxışları və yorulmaz əməyi ilə gəncləri istiqlal və bütövlük ideallarına kökləyən, ilk demokratik, azad qezetimizi təsis edən və nəhayət, Azərbaycanın Müstəqillik aktına imza atan Sabir Rüstəmxanlı ictimai-siyasi fəaliyyətində Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir bəy Hacıbəyli, Məmməd Əmin Rəsulzadə və müstəqilliyimiz uğrunda mübarizə aparmış digər milli ziyalılarımızın, böyüklərimizin yolunu inamla davam etdirir. "Vətəndaşlığın əlifbası" onun "Bu sənin xalqındır", "Özümüzdən böyük sözümüz", "Milli taleyimiz və biz" kimi kitablarında irəli sürülən milli ideyanın davamı, Vətən və Millətlə bağlı düşüncələr toplusudur.

*Sərvaz Hüseynoğlu*